# "Qarabağ" Azərbaycan Kubokunun qalibi olub

## Ağdamlılar titul sayında Azərbaycan rekordunu yeniləyib





Azərbaycan futbolunda mövsümün son oyunu keçirilib. "Liv Bona Dea Arena"da keçirilən ölkə kubokunun final matçında "Qarabağ" və "Zirə" komandaları üz-üzə gəlib. Görüş Ağdam təmsilçisinin 2:1 hesablı qələbəsi ilə yekunlaşıb. Hesabı 42-ci dəqiqədə Olavio Juninyo açıb. 57-ci dəqiqədə İsmayıl İbrahimli hesabı bərabərləşdirib. "Qarabağ"a kuboku qazandıran qola 62-ci dəqiqədə Abdullah Zubir imza atıb.

Bununla da Ağdam klubu 8-ci dəfə Azərbaycan Kubokunun qalibi olub.

"Mövsümü çox maraqlı başa vurduq. Ölkə kubokunun finalı da möhtəşəm alındı". Bu sözləri "Qarabağ" komandasının baş məşqçisi Qurban Qurbanov oyundan sonra təşkil olunan mətbuat konfransında deyib.

Mütəxəssis qarşılarında istəkli komandanın olduğunu bildirib: "Zirə"ni bütün mövsüm ərzindəki performansına görə təbrik edirik. Futbolçularıma gəlincə, onlarla qürur duyuram. Uğur qazandığın zaman arxayınlıq olur. Lakin çalışacağıq bunun qarşısını alaq".

Baş məşqçisinin dediyinə görə, "Zirə"nin büdcəsi "Qarabağ"la eyni səviyyədə olmasa da, rəqib böyük işlər görüb: "Həqiqətən yaxşı mövsüm keçirdilər. Düşünürəm ki, bu cür büdcə ilə mübarizə aparmaqları bir növ bizə qalib gəldiklərini göstərir".

Qurban Qurbanov bu gün karyerasını başa vuran Maksim Medvedevin gələcəyi ilə bağlı qarşıdakı günlərdə qərar verəcəyini vurğulayıb: "Maksimin Azərbaycan futboluna böyük xidmətləri olub. Onunla bu barədə danışmışdıq. Ona gələcək karyerasında uğurlar arzulayıram".

53 yaşlı çalışdırıcı sabiq futbolçusu Kadi Borgesin "Qarabağ"a qayıtmaq ehtimalından danışıb: "Məncə, o da bura geri dönmək istəyər. Əlbəttə, bunu biz də istəyirik".

Q. Qurbanov Aleksey İsayev və Nəriman Axundzadənin oyunundan razı qaldığını söyləyib.

"Altıncı dəfə mövsümü "qızıl dubl"la bitirdik. Gözəl hisslərdir".

Bu sözləri "Qarabağ" komandasının prezidenti Tahir Gözəl Azərbaycan Kubokunun qalibi olmaqları barədə danışarkən deyib.

Funksioner gözəl oyuna görə "Zirə"ni təbrik edib: "Rəşad Sadıqov çox yaxşı əzmkar komanda formalaşdırıb. Biz də fantastik mübarizə apardıq. Futbolçularımla qürur duyuram. Növbəti hədəf Çempionlar Liqasında Azərbaycanı layiqincə təmsil etməkdir".

"Qarabağ" 8-ci dəfə ölkə kubokunu qazanmaqla, həm də 6-cı "Qızıl dubl"una imza atıb. Hər iki göstəricidə özünün sahib olduğu rekordu yeniləyən Ağdam təmsilçisi tarixində yubiley titulunu əldə edib. Hesabında 11 çempionluq və 8 kubok olan "Qarabağ" 1993-cü ildə Superkuboka da sahib çıxıb. Ağdamlılar titul sayında da Azərbaycan rekordunu yeniləyiblər.

***Rizvan HİLALOĞLU,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.-4 iyun, № 116.- S.12.